**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

# ƏMR

**№** Ü/046

**Bakı şəhəri** "19" mart **20**20 **il**

**Koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkilinin təmin edilməsi ilə bağlı Agentlik çərçivəsində həyata keçirilən qabaqlayıcı tədbirlər haqqında**

Koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkilinin təmin edilməsi və bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Baş Naziri cənab Əli Əsədov tərəfindən Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyət orqanlarına və dövlət qurumlarına 16 mart 2020-ci il tarixli 1/384 nömrəli məktub ünvanlanmışdır.

Həmin məktubda nəzərdə tutulan müvafiq tədbirlərin icrasını təmin etmək məqsədilə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında" Əsasnamənin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsi və icrasına nəzarətin təmin edilməsi məqsədilə mövcud vəziyyət aradan qalxanadək aşağıdakı tədbirlər həyata keçirilsin:

**1.1.** Agentlik daxilində iclaslar, müşavirələr və toplantılar yalnız telefon (selektor) rabitəsi, mobil və internet vasitəsilə keçirilsin;

**1.2.** Agentliyin 60 yaşdan yuxarı olan işçilərinin, öhdəsində azyaşlı uşağı olan qadın əməkdaşlarının, o cümlədən işçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi hallar olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin və onların məsafədən işləmələri təmin edilsin;

**1.3.** Struktur bölmə rəhbərləri mütəmadi olaraq tabeliklərində olan işçilərin səhhətlərini nəzarətdə saxlasınlar və qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi hallar müşahidə etdikləri halda dərhal həmin şəxslərin işdən kənar edilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görsünlər;

**1.4.** xüsusi zərurət olduğu hallar istisna olmaqla, daxili və xarici ezamiyyələr ləğv edilsin. Ezamiyyətə xüsusi zərurət olduğu hallarda, razılıq alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət edilsin.

**1.5.** Əməkdaşların xarici ölkələrə şəxsi səfərləri məhdudlaşıdırılsın.

**1.6.** Vətəndaşların qəbulu ilə əlaqədar aşağıdakı qaydalara riayət edilsin:

**1.6.1.** Vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın.

**1.6.2.** Vətəndaşların müraciətlərinin fasiləsiz qəbulu yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilsin. Bu məqsədlə Agentlik tərəfindən müəyyən edilmiş elektron ünvanlarının və telefon əlaqə nömrələrinin, habelə 1003 “Çağrı Mərkəzi”nin fasiləsiz fəaliyyəti təmin edilsin.

**1.6.3.** Vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə Agentlik Aparatı üzrə məsul şəxs kimi Hüquq, kadr və icraya nəzarət şöbəsinin Kargüzarlıq sektorunun müdiri Əbdüləzimov Asif Hilal oğlu təyin edilsin;

**1.6.4.** Agentliyin regional bölmə rəhbərləri və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun rəhbərliyi tərəfindən vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə məsul əməkdaşlar müəyyən olunsun və nəticəsi barədə Agentliyin sədrinə məlumat verilsin.

**1.7.** Agentliyin İnformasiya və innovativ həllər şöbəsinə (**Mansur Piriyevə**) tapşırılsın ki, Agentlik tərəfindən bu sahədə həyata keçirilən tədbirlər barədə vətəndaşların məlumatlandırılmasını təmin etsin.

**2.** Agentliyin bütün struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, işçilərin mövcud vəziyyəti qiymətləndirmələri, məsuliyyətli davranmaları və virusun yayılmasına səbəb ola biləcək bütün halların qarşısının alınması üçün şəxsi gigiyena qaydalarına ciddi şəkildə riayət etmələri ilə bağlı məlumatlandırmanı həyata keçirsinlər.

**3.** Agentliyin Maliyyə və təminat şöbəsinə **(Əziz Şərifova)** tapşırılsın:

**3.1.** İş saatları ərzində mütəmadi olaraq dezinfeksiya tədbirlərinin görülməsi təmin edilsin;

**3.2.** Agentliyin Aparatının və regional bölmələrinin yerləşdiyi inzibati binaların daxilində əllərin dezinfeksiyası üçün dispenserlər quraşdırılsın;

**3.3.** Agentlik əməkdaşları şəxsi müdafiə ləvazımatları ilə (tibbi maska, əlcəklər, salfetlər və s.) təmin olunsun.

**4.** Agentliyin Hüquq, kadr və icraya nəzarət şöbəsi **(İbrahim Babayev)** bu əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

**5.** Bu əmrin icrasına nəzarət öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikasının Baş Nazirinin 16 mart 2020-ci il tarixli 1/384 nömrəli məktubu.

**Sədr** **Qoşqar Təhməzli**